AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№332/1** **12 iyul 2021-ci il**

"Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında təlimat"ın təsdiq edilməsi barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"nın (2021-2030-cu illər) 5.4-cü "Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri" bölməsinə və Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.12-ci "Auditorun şəxsi kabineti sisteminin fəaliyyətinin təşkili və təkmilləşdirilməsi" və 1.15-ci "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi" bəndlərinə uyğun olaraq hazırlanmış "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında təlimat"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında təlimat" təsdiq edilsin (təlimat əlavə olunur).
2. "Auditorun şəxsi kabineti" sistemindən istifadə zamanı bu təlimatın müddəalarının tələblərinin icrasının məcburi xarakter daşıması auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılsın, müqavilələrin və rəylərin qeydiyyatının bu təlimata uyğun olaraq düzgün və vaxtında aparılması onlardan tələb edilsin.
3. Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, 2021-ci ilin III rübü ərzində "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında təlimat" barədə auditor təşkilatlarına və sərbəst auditorlara vebinarın keçirilməsi təmin edilsin.
4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, on gün müddətində bu təlimatın Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
5. Auditorlar Palatası Şurasının 2018-ci il 12 iyun tarixli 301/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Sərbəst auditorların, auditor təşkilatlarının və xarici auditor təşkilatlarının filiallarının (və ya nümayəndəliklərinin) fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və ona əlavə və dəyişikliklərin edilməsinə dair təlimat" və 2018-ci il 05 oktyabr tarixli 304/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti müqaviləsinin bağlanmasına dair Auditorlar Palatasının məlumatlandırılması qaydası" 2021-ci il 01 avqust tarixindən qüvvədən düşmüş hesab edilsin.
6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və təlimatın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**